ENERGY SOLUTİONS

**“Təsdiq edirəm”**
**“Energy Solutions” MMC-nin direktoru**
**______ Kamal Mustafayev**
**“ *01* ” *Sentyabr* 2023-cü il.**

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyət ENERGY SOLUTIONS Limited Liability Company AZERBAIJAN REPUBLIC

## “ENERGY SOLUTİONS” MMC-NİN SAĞLAMLIQ, ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TEXNİKİ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

“Energy Solutions” MMC müvafiq qanunlara və professional təcrübəyə əsaslanaraq səylə, təhlükəsiz və səmərəli şəkildə Geoloji tədqiqatlar həyata keçirir və Sağlamlıq, Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik “Energy Solutions” MMC üçün böyük əhəmiyyət kəsb edir.

Bizim əsas məqsədimiz budur:

- Təhlükəsizlik, sağlam və zədəsiz, bədbəxt hadisəsiz və qəzasız iş rejimini qoruyub saxlamaq, digər təhlükələrin qarşısının alınmasını mümkün qədər təmin etmək

“Energy Solutions” MMC-nin öhdəlikləri :

- Azərbaycan Respublikasının Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik ilə əlaqəli Qanunvericiliyə və ISO 45001:2018 Beynəlxalq Standartına riayət edəcək, uyğun iş aparacaq və bu sahədə daim inkişaf edəcək
- Zədə və xəsarətlərin, sağlamlığa dəyən ziyanın, ətraf mühitin çirklənməsinin və digər təhlükələrin qarşısının alınmasını mümkün qədər təmin edəcək
- Apardığımız əməliyyatlarda risklərin qiymətləndirilməsi və mümkün qədər azaldılması üçün KSƏTƏM sistemini və səmərəli təhlükəsizlik qaydalarını tətbiq edəcək
- “Energy Solutions” MMC-də hər bir kəsin xeyrinə KSƏTƏM proseslərində işçiləri fəal iştiraka ruhlandıran güclü və fəal mədəniyyət inkişaf etdirəcək
- İşçiləri aşkar olunmuş risklərlə, təhlükələrlə və onların idarə olunması üsulları ilə tanış etmək məqsədilə iclaslar keçirəcək
- Sağlamlıq, Əməyin mühafizəsi və texniki təhlükəsizlik üzrə siyasət və prosedurаları daim inkişaf etdirəcək və təkmilləşdirəcək

Sağlamlığa, Əməyin Mühafizəsinə və Texniki Təhlükəsizliyə cavabdehlik bizim hər birimizin üzərinə düşür. Bu, gündəlik əməliyyatlarımızın ayrılmaz tərkib hissəsidir.

**"Təsdiq edirəm"**

**"Energy Solutions" MMC-nin direktoru**

**_______ Kamal Mustafayev**

**" *01* " *Sentyabr* 2023-cü il.**

ENERGY SOLUTİONS

## ƏTRAF MÜHİTİN İDARƏ OLUNMASI SİYASƏT

**Geoloji tədqiqatlar həyata keçirən "Energy Solutions" MMC iş yerlərində aşağıda göstərilən prinsipləri həyata keçirməklə ətraf mühitin qorunması siyasətini yürüdür:**

- Öz müştəriləri, tərəfdaşları və əməkdaşları qarşisinda götürdüyü öhdəlikləri hər şeydən üstün tutan etibarlı şirkət nüfuzunu işdə təsdiq etmək;
- Ətraf mühitin qorunması üzrə qüvvədə olan qanunvericilik, normativ və digər tələblərinə bütün sahələrində ciddi əməl etmək;
- Şirkətin yüksək səviyyədə və rəqabətə dözümlü vəziyyətdə olmasının tam təmin edilməsi üçün yeni texnologiyaların mənimsənilməsi və tətbiqini təmin etmək;
- Ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə dayanıqlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulları tətbiq edir;
- Ətraf mühitə mənfi təsirin qarşısını alan qoruyucu və qabaqlayıcı tədbirlər görür;
- İnteqrasiya edilmiş menecment Sisteminin (İMS) daim təkmilləşdirilməsi və eləcə də Ətraf mühit sahəsində göstəricilərin daha da yaxşılaşdırılması üçün tədbirlər görmək;
- Şirkətin işçilərinin peşəkarlıqlarının artırılması və bütün heyətin ətraf mühitin qorunmasının təmin edilməsinə cəlb etmək;
- İSO 14001:2015 standartının tələblərinə riayət edilməsini təmin etmək məqsədi ilə daxili auditlər keçirmək yolu ilə İMS-i daim inkişaf etdirmək və təkmilləşdirmək;

**"Energy Solutions" MMC -nin rəhbərliyi öhdəsinə götürür:**

- ətraf mühitin mühafizəsi sahəsində siyasətini şirkətin bütün işçilərinin nəzərinə çatdırmaq;
- yuxarıda qeyd edilən prinsiplərin yerinə yetirilməsinə lazım olan bütün lazımi mənbələr ayırmaq;
- qarşıya qoyulmuş məqsədə çatmaq üçün şirkətin bütün işçilərinə yardım etmək.

“Təsdiq edirəm”
“Energy Solutions” MMC-nin direktoru
_________ Kamal Mustafayev
“ 01 ” sentyabr 2023-cü il.

ENERGY SOLUTİONS

## “ENERGY SOLUTİONS” MMC-NİN KEYFİYYƏT SİSTEMİ ÜZRƏ SİYASƏTİ

“Energy Solutions” MMC-nin məqsədi beynəlxalq tələblərə əsasən görülən hər bir işi təhlükəsiz, ətraf mühitə ziyan vurmadan və keyfiyyətlə yerinə yetirib sifarişçinin böyük etimadını qazanmaqdır.

Bunun üçün, keyfiyyət sistemində qoyulan tələblərə əməl etməklə bu sistemin daim təkmilləşdirilməsi, inkişaf etirilməsi və müasirləşdirilməsi ilə bağlı “Energy Solutions” MMC-nin rəhbərliyi aşağıdakı əsas meyarları önəmli hesab etməklə onlara mütəmadi əməl edir:

- Azərbaycan Respublikasının Keyfiyyətlə bağlı qanunvericiliyində, Dövlət Qanun və qaydalarında, İSO 9001:2015 Beynəlxalq Keyfiyyəti İdarəetmə Standartında qarşıya qoyulan bütün tələbləri yerinə yetirmək.
- İSO 9001 Beynəlxalq standartının tələblərinə uyğun olaraq keyfiyyət sisteminin təkmilləşdirilməsinə, səmərəliliyinə müsbət təsir edən bütün işləri daim inkişaf etdirmək və hər il müasir texnika və texnoloqiyanı tədbiq etməklə onların daha da yeniləşdirilməsinə çalışmaq.
- Sistemin faktorları əsas götürülərək şirkət tərəfindən aparılan bütün işlər elə planlaşdırılmalıdır ki, keyfiyyətə təsir göstərə biləcək bütün mənfi amilləri minimuma endirilsin.
- Komanda içində harmoniya, effektivlik, yaradıcılıq mühiti yaratmaqla işin keyfiyyətinə təsir etmək və Keyfiyyət İdarəetmə Sistemi tərəfindən şirkətin hər bir fəaliyyət növünə qoyulan tələbləri yerinə yetirmək.
- Keyfiyyət sisteminin daimi inkişafı ilə əlaqədar işçi pesonalın təhsili və maarifləndirilməsi üçün lazım olan bütün imkanlardan (seminar, kurslar, inkişaf etmiş təşkilatlarla təcrübə müqavilələri, internet, standartlaşdırma institutu ilə əlaqə və digər informasiya vasitələri) istifadə etməklə Keyfiyyət İdarəetmə Sisteminin səmərəliliyini daim artımaq.